Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**

# Təbrizli Süleyman oldum

*(Süleyman Rüstəmin 110 illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait)*

**Bakı – 2016**

Tərtibçi: **Könül Səmədzadə**
**Sevil Əhmədova**

Redaktor və
buraxılışa məsul: **Zahirə Dadaşova**

**Təbrizli Süleyman oldum:** S. Rüstəmin 110 illik yubileyi münasibəti ilə hazırlanmış metodiki vəsait /tərt. ed. K.Səmədzadə; red. və burax. məsul Z. Dadaşova ; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 36 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası**

**2016**

# Tərtibçidən

Azərbaycanın müasir dövr poeziyasını yaradanlardan biri olan xalq şairi Süleyman Rüstəm sözün dərin və həqiqi mənasında xəlqiliyi öz poeziyasının canına, qanına hopdurmuş coşqun təbli bir şair olmaqla yanaşı, həm də görkəmli dramaturqdur. Yaradıcılığı Azərbaycan ədəbiyyatının yeni dövrünə təsadüf edən Süleyman Rüstəm poeziyada milli, klassik ənənələrin davamçısı olmuş, eyni zamanda bu ənənələri öz yenilik axtarışları ilə əhəmiyyətli dərəcədə zənginləşdirmiş, şeirimizin novator xüsusiy-yətlərinin yaranmasında diqqətəlayiq rol oynamışdır.

Süleyman Rüstəmin poetik incilər xəzinəsində Vətənə məhəbbət çələngi olan Cənub şeirlərinin xüsusi yeri var. Bu şeirlərin lirik qəhrəmanının qəlbində bir azərbaycanlı kimi Cənub həsrəti son dərəcə güclüdür. Ancaq heç bir yerdə bu həsrət sızıltıya, düşkünlüyə çevrilmir. Şairin Təbriz qəzəlləri xalq dərdinin, böyük insan arzularının, işıqlı bir dünya həsrətinin bəzən yanıqlı, bəzən də qəzəbli səslənən rübabıdır.

Yubileyini qeyd etdiyimiz xalq şairi Süleyman Rüstəmin 110 illiyi münasibətilə hazırladığımız bu vəsaiti kitabxanaçıların ixtiyarına veririk. Vəsait iki hissədən ibarətdir. I hissə şairin həyat və yaradıcılığından, II hissə isə keçiriləcək yubiley tədbirlərindən ibarətdir. Vəsaitin sonunda verilən biblioqrafik ədəbiyyat siyahısı məlumat biblioqrafiya şöbəsi tərəfindən F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondu əsasında hazırlanmışdır. Ümidvarıq ki, Süleyman Rüstəm yaradıcılığı ilə bağlı hazırladığımız vəsait kitabxanaçıların istifadə edə biləcəyi vəsaitlərdən biri olacaqdır.



**I Bölmə:**

**Həyat və yaradıcılığı:**

**“Sən kimsən?”-deməyin mən Süleymana,**

**Sadiq bir övladam Azərbaycana.**

**Dünəni, bu günü hələ bir yana,**

**Onun sabahında yaxşı ki, varam!**

**Mən Süleymanam!**

Şair üçün ən böyük səadət ümumxalq məhəbbəti qazanmaq, könüllərdə məskən salmaqdır. Hansı sənətkarın ki, yaradıcılığını gənclər də, qocalar da, alim də, çoban da eyni hərarətlə izləyir, oxuyur, sevir o sənətkar xoşbəxtdir. Süleyman Rüstəm də məhz belə sənətkarlardandır. Ömrünün çoxunu qaynar ədəbi mühitə, yaradıcılıq ehtirası ilə rövnəqlənən mənalı bir aləmə həsr etmiş Süleyman Rüstəmin qələmi ilə ürəyi eyni vəhdət zəminində yaşamış-yaratmışdır. Bəli, sənətkar əsil yaradıcı, əsil vətəndaş olanda onun könül aləmi ilə ifadə, müraciət tərzi arasında da fərq aparmaq əbəsdir.

12 mart 1906-cı ildə Bakıda dəmirçi ailəsində anadan olan Süleyman Rüstəm Azərbaycan ədəbiyyatının çox görkəmli nümayəndələrindəndir. Ötən əsrdə yaşamış şair bəzi həmkarları ilə müqayisədə əslində bəxti gətirmiş qələm sahiblərindən olub. 1937-ci ilin repressiyası millətin say-seçmə oğullarını qara tufanlara saldı. Ağır və amansız dövrün ölüm qoxulu təqiblərinin hədəfindən qurtararaq yaşamaq, yaratmaq hər kəsə nəsib olmurdu. Bu, bir tərəfdən Tanrının yazısı, digər tərəfdən də öz başını qovğalardan salamat çıxarmağı bacarmaq demək idi. Süleyman Rüstəm məhz qara qüvvələrin gözündən məharətlə yayındığından təzyiqlərə, həbslərə tuş gəlmədi. Nə yaxşı ki, belə oldu. Yazıb yaratdıqları ədəbiyyatımızın solmayan səhifələrini təşkil edir. XX əsr Azərbaycan poeziyasının coşqun ruhlu, novator şairlərindən biri məhz Süleyman Rüstəm olmuşdur.

S.Rüstəm hələ saglığında tədqiqatçıların daim diqqət mərkəzində olan söz sahiblərindən olub. Onun ədəbi irsi ilə bağlı yetərincə araşdırmalar var. Ötən əsrin 20-cı illərindən başlayaraq həm şeirləri, həm də məqalə və çıxışları ilə həyatı tərənnüm edən S. Rüstəmin 1927-ci ildə çapdan çıxmış "Ələmdən nəşəyə" adlı ilk şeirlər kitabı onun bütün yaradıcılığının leytmotivinə çevrildi. Bəzən gənc ədəbi qüvvələr S. Rüstəmi "sovet şairi" kimi səciyyələndirərək onun bütün yaradıcılığının üzərindən qara xətt çəkməyə çalışırlar. Bu, çox yanlış fikir və insafsızlıqdır. Çünki pioner, komsomol və kommunist partiyasından yazmaq vaxtilə yaşadığımız dövrün özünəməxsusluğu idi. Süleyman Rüstəm "bu dəmir çəpərli" rejimin içində poetik məzmunu və mövzusu ilə fərqlənən son dərəcə dəyərli əsərlər də yaradıb. "Oxuyun, bir qızıl kitabam"- deyən Süleyman Rüstəm özünü oxucusuna inqilab şairi kimi təqdim etməklə bir daha təsdiqləyib ki, onun poeziyası mübariz, döyüşkən bir ruhla həyatın içinə atılıb. O, əslində novator şair idi. Bu

səbəbdən də yaşadığı həyatın yüksəlişini, yeniləşməsini, yaxşıya doğru irəliləyişini tərənnüm etməkdə, vəcdə gəlməkdə haqlı idi. 70 il içərisində yaşadığımız bir quruluşda həm bu dövrün ab-havasını qələmə gətirmək, həm də millətin, vətənin xeyri üçün mükəmməl, poetik nümunələr yazmaq həqiqətən böyük istedad tələb edirdi. Bu baxımdan S. Rüstəm tanrı vergili bir şair idi.

Azərbaycanın elə bir guşəsi yoxdur ki, S. Rüstəm ora şeir qoşmasın. Xəzər dənizi haqqında ən çox şeir yazan da məhz S.Rüstəm olub. “Xəzər və durnalar”, “Xəzər nəyə bənzəyir”, “Xəzərdə gecə”, “Xəzərdə”, “Xəzərin səhəri”, “Xəzərim olsun” və başqa şeirlərində öz xəyalının qanadlarını Xəzərin dalğaları ilə qovuşduran şair bu mavi gözəli tərənnüm etməkdən doymayıb.

İkinci Dünya müharibəsi S. Rüstəm yaradıcılığından da təsirsiz keçməyib. O, bu mövzuda bir-birindən maraqlı və mükəmməl əsərlər yaradıb: “Ana ürəyi, “Durnalar”, “Ana və poçtalyon”, “Gün o gün olsun ki...” kimi kitabları məhz o dövrdə çapdan çıxıb.

Gün o gün olsun ki, qurtarsın dava,
Dağılsın buludlar, açılsın hava.
Alınsın düşməndən ömürlük qisas,
Torpaq nəfəs alıb dincəlsin bir az.
Silinsin ürəkdən, könüldən ağrı,
Bir də tapdanmasın vətənin bağrı.

Bu şeir İkinci Dünya müharibəsi zamanı qələmə alınsa da, bu günün özündə də aktuallığını itirməyib. Müharibə mövzusunda şeir yazan şairlər sırasında S. Rüstəmin məhz öz yeri vardı. O, qanlı səngərlərdə və arxa cəbhədə mərdlik nümunəsi göstərən soydaşlarımızın ovqatını poetik portretləşdirib desək, yanılmarıq. Bu qəbildən şairin “Ana və poçtalyon” adlı məşhur əsəri həmişə dillər əzbəri olub. Şair böyük məharət və həssaslıqla

cəbhədən oğlundan məktub gözləyən ananın iztirabını təbii, təsirli qələmə almışdır. S. Rüstəmin böyük məhəbbətlə yaratdığı Ana və poçtalyon obrazları müharibə illərində min bir zillət çəkən vətən övladlarının unudulmaz surətləridir. Bu surətlərdə çoxunun həyatı var idi.

S.Rüstəmin Azərbaycan poeziyasına bəxş etdiyi poetik çələnglərdən ən gözəli və təsirlisi məhz Cənub mövzusunda yazdığı əsərlərdir. Məlumdur ki, İkinci Dünya müharibəsi illərində S.Rüstəm Cənubi Azərbaycanda olmuş, orada yaşamış soydaşlarımızın ağır həyatını gözləri ilə görmüş, cənublu şairlərlə görüşmüşdür. Təbii ki, bütün bunlar da sonralar şairin könlündən poetik şəkildə kağızlara naxışlanmışdır. Ən müqəddəs arzusunu isə belə qələmə almışdır:

Bir arzum var bu dünyada,
Bir gün məni salıb yada,
Kitabımı Arazdakı
          körpü üstündə assınlar,
Gənc nəsillər unutmasın
                    Bu şairin şərtini,
Tez köçərsəm bu dünyadan
                    başdaşıma yazsınlar,
İki yerə parçalanmış ürəyimin dərdini.

“Təbrizim” adlı şeiri isə Süleyman Rüstəmin bu mövzuda misralarla dilə gətirdiyi ən təsirli poetik həsrətdir:

Nədir o mənalı dərin baxışlar?
Nədir gözlərindən yağan yağışlar?
Nədir qəlbindəki payızlar, qışlar?
Yetim tək boynunu burma Təbrizim!
Məlul-məlul baxıb durma Təbrizim!

“Könlümə Təbriz düşdü”, “Yaralarım”, “İşıq”, “Şair Səhəndə cavab”, “Yenə Araz qırağında”, “Görsəm” kimi şeirlərində Süleyman Rüstəm vətən həsrəti ilə dərdi başdan

aşan soydaşlarımızın təlaşından, əzablı, cəfalı günlərindən söz açıb. Bir millətin ayrılıq simvoluna çevrilmiş Arazın sularında həsrətin, niskilin axdığından danışıb. Nə vaxtsa bir müjdənin veriləcəyinə Təbrizlə əbədi görüşəcəyinə ümid bəsləyib. S.Rüstəmin Cənub mövzusunda yazdığı bütün şeirləri gözəl və təsirlidir. Ona görə yox ki, bu şeirlərdə paralanmış torpağımızın harayı eşidilir. Ona görə ki, bu şeirlərdə şair böyük ustalıqla vətən gözəlliklərinə poetik abidələr yaradıb. Sərabı, Ovqanı, Təbrizi, Ərdəbili, Marağanı vəsf edərək vətən torpağı olduğunu misraları ilə, poetik duyumu ilə poeziya tarixinin səhifələrinə möhürləyib.

Lirik şeirlərinə onlarca musiqi bəstələnmiş S. Rüstəm həm də əsl nəğməkar şair kimi sevilir. Onun nəğmələrini müğənnilər böyük məmnunluqla ifa edirlər. Bu sahədə xüsusilə xalq artisti Zeynəb Xanlarovanın repertuarı seçilir. Xalq şairi Zeynəb xanımın ifasına məftunluğunu belə qələmə almışdır:

İllərdir tanışam sənin səsinlə,
Sevinc paylayırsan ürək sözünlə,
Vəcdə gətirirsən xoş nəfəsinlə,
Könül rübabımın telini, Zeynəb!

Ədəbi fəaliyyətə "Çimnaz xanım yuxudadır" adlı bir pərdəli komediyası ilə başlayan S.Rüstəm dramaturq kimi də müəyyən uğurların sahibidir. 1940-cı ildə qələmə aldığı "Durna" komediyası teatrlarımızın vaxtilə repertuarlarından düşməzdi. Bədii yaradıcılıqla, tərcümə ilə müntəzəm məşğul olan S.Rüstəm həm də müxtəlif məsul vəzifələrdə çalışmışdır. Bir neçə çağırış həm Azərbaycan, həm də SSRİ Ali Sovetinin deputatı olmuşdur. Onun xalq, vətən qarşısındakı xidmətləri layiqincə qiymətləndirilmişdir. Sinəsini müxtəlif orden və medallar bəzəyirdi. Dövlət mükafatları laureatı idi. İctimai xadim kimi şöhrət qazanmışdı. Sosialist Əməyi Qəhrəmanı idi. Əsərləri müxtəlif xarici dillərə tərcümə olunmuşdur. Könlünü

vətəninə verən, onun uca dağlarını, gur çaylarını, yaşıl zəmilərini, geniş düzlərini, zəhmətkeş, sədaqətli insanlarını məhəbbətlə tərənnüm edən S. Rüstəm yazırdı:

Ey nazlı vətən,
Mən sənə öz könlümü verdim,
Qarşında günahkarsa,
Süleyman bağışla!

Cürət və qüdrətlə öz doğma yurduna ilhamlı nəğmələr qoşan şairin bu etirafı çox mətləblərdən xəbər verir. Hər dəfə olduğu kimi bu il də biz S.Rüstəmin yubileyini qeyd etmək ərəfəsindəyik. Şairin 110 illik yubileyini qeyd etmək üçün respublikamızın mədəni-maarif ocaqlarında yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur.

## II Bölmə
## Yubiley tədbirlərinin keçirilməsi

**Süleyman, şairsən, bilirsən özün,**
**Qılıncdan itidir, kəskindir sözün...**

Süleyman Rüstəm poeziyasının böyüklüyü, qüdrəti ondadır ki, o, ilk şeirlərindən xalqın qəlbinə yol tapmış, milyonların sevimli şairi olmuşdur. Və sənətkara olan bu müqəddəs xalq sevgisi illər ötdükcə daha da dərinləşmiş, onun odlu poeziyasına qol-qanad vermişdir. S.Rüstəm poeziyasının minlərlə vurgunu, pərəstişkarı var. Hər yerdə xalqımız bu böyük sənətkarını sevir, onu böyük hərarət və ehtiramla qarşılayırlar. Bəli, elə məhz bu gün sevilən sənətkar, Xalq şairi S.Rüstəmin 110 illik yubileyi qeyd olunur.

Süleyman Rüstəm yaradıclığı ilə yaxından tanış olmaq üçün kitabxanada əvvəlcədən tədbirlər planı hazırlamaq lazımdır. Tədbirlər planının geniş və maraqlı olması üçün ilk növbədə kitabxanada sərgi təşkil olunmalıdır. Sərgi

müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Unudulmayan Süleyman Rüstəm”, “Sanma taleyindən küskündür şeirim”, “Vətənsiz yaşamadım”, “Həmişəcavan poeziya”, “Alovlu, mübariz şair Süleyman Rüstəm” və s. “Süleyman Rüstəm-110” adlı sərginin nümunəsini Sizə təqdim edirik:

1. **Başlıq:** “Süleyman Rüstəm-110”
2. Kitabların nümayişi.
3. Görkəmli insanların Süleyman Rüstəm haqqında söylədikləri sitatlar.
4. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
5. Şeir parçası.

Mənim şeirim mühitin dilədiyi meyvədir,
Xalqımızın ruhunu oxşar kəndi dililə,
Onun hər miqyasında ələm deyil, sevinc var,
Nə yalvarar tanrıya, nə də gülə, bülbülə

**Kitabların nümayişi:**



  

**Görkəmli insanların Süleyman Rüstəm haqqında söylədikləri:**

1. Süleyman Rüstəm qəzəllərinin çoxu mahiyyət etibarilə yeni qəzəllərdir. Bu yenilik onların forma və ifadə tərzinə aid deyil, bəlkə birinci növbədə bu qəzəllərin məzmununa aiddir.

Rəsul Rza<br>Xalq şairi

2. Süleyman Rüstəm Sovet Azərbaycan poeziyasının banisi olmuşdur. Biz, Sovet Azərbaycanının bütün şairləri Süleyman Rüstəmə borcluyuq.

Səməd Vurgun<br>Xalq şairi

3. Süleyman Rüstəm ürəyinin bütün odu ilə torpağa bağlıdır. Cənub mövzusunda yazdığı şeirlər ədəbiyyat tariximizin unudulmaz səhifələridir. O şeirlərdəki sərt lirizm, qılınc kimi kəskin pafos xalqın azadlığını hər şeydən yüksək tutan şairin ürək yanğısıdır.

İlyas Əfəndiyev<br>Xalq yazıçısı

4. Bu gün Süleyman Rüstəm aramızda yoxdur. Amma onun “Ana və poçtalyon” kimi şeirləri, “Qafurun qəlbi” kimi poemaları, “Qaçaq Nəbi” kimi pyesi xalqın qəlbində yaşayır.

Nəbi Xəzri
*Xalq şairi*

5. Süleyman dramaturgiyası Süleyman poeziyası ilə aşılandığı, vətəndaşlıq pafosu ilə qidalandığı üçün qiymətlidir. Onlar gerçək həyatın, sovet həqiqətinin düzgün inikasını verdiklərinə, həyatla bağlılığına, keçdiyimiz inkişaf mərhələləri ilə əlamətdar olduqlarına görə əhəmiyyətlidirlər.

Mehdi Məmmədov
*Tərcüməçi, tənqidçi*

Süleyman Rüstəm yaradıcılığını daha yaxından izləmək üçün kitabxanada şeir müsabiqəsinin keçirilməsi vacibdir. Şeir müsabiqəsinin keçirilməsində məqsəd uşaqlarda şeiri duymaq, şeiri basa düşmək və şeiri ifadə ilə demək bacarığını üzə çıxarmaqdan ibarətdir. Şeiri intonasiya ilə söyləyə bilən oxucular müsabiqədə iştirak edən münsiflər tərəfindən I, II, III yerlər üzrə təltif olunurlar. Tədbirdə bir çox şeirlərdən istifadə etmək olar. Məsələn: “Azərbaycana gəlsin”, “Ana çörəyi”, “Ana və poçtalyon”, “Vətən”, “Borcluyam insanlara” və s.

Süleyman Rüstəm yaradıcılığının geniş və dolgun təbliği üçün keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsinin keçirilməsində məqsəd şairin qələmə aldığı əsərlərlə yaxından tanış olmaqdır. Kitab müzakirəsində yazıçının bir çox əsərlərini oxucuların müzakirəsinə vermək olar. Lakin biz bu gün ən çox sevilən və təbliğ olunan “Ələmdən nəşəyə” adlı romanın müzakirəsini vermək istəyirik. Tədbirə bir çox yazıçı və

şairləri, tənqidçiləri, ədəbiyyatşünasları və oxucuları dəvət etmək olar. Kitabxanaçı tədbiri giriş sözü ilə açır:

***Kitabxanaçı:*** S.Rüstəm poeziyaya 20-ci illərin əvvəllərində gəlmişdir. Mətbuatda ilk şeiri 1923-cü ildə çıxmışdır və bundan sonra onun ardıcıl olaraq qəzet və yurnallarda ədəbi-bədii yazıları, şeirləri dərc olmuşdur. O, "Ələmdən nəşəyə" adlı kitabında belə yazırdı: " Ədəbiyyat cəbhəsinə 23-cü ildə atıldım. Şeirlərimin ilk gülüşü ağlamaq oldu. Şeirimlə ağladım, sızladım". S.Rüstəm, tam əsasla deyə bilərik ki, əsrin 20-ci illərindən başlayaraq yeni dövr poeziyasını yaratmaq kimi böyük və çoxcəhətli bir yaradıcılıq vəzifəsini həyata keçirmiş şairdir. Onun ilk kitabı Almas İldırımla birgə yazdığı "Dün bu gün" 1926-cı ildə çıxmışdır. Gənc şairin təxminən dörd illik poetik fəaliyyətini əks etdirən "Ələmdən nəşəyə" kitabı isə 1927-ci ildə nəşr olunmuşdur. Bu, yeni poeziyanın başlanğıcı idi.

S. Rüstəmin "Ələmdən nəşəyə" adlı ilk şeirlər kitabını Azərbaycan poeziyasının Manifesti adlandırmaq olar. Kitab sadəcə istedadlı bir şairin şeirlər toplusu deyil, həm də poeziyanın yeni istiqamətini, yeni poetik meyllərini, yeni poetikasını təmsil edən bir şairin meydana çıxdığını xəbər verirdi. Kitabda şair xalqın tarixində baş verən dönüşdən, onun inqilabi əzmindən və gələcəyindən bəhs edirdi. Şairin səsi xalqın səsi, dövrün səsi kimi gurlayırdı.

"Ələmdən nəşəyə" adlı kitab haqqında Əhməd Cəmil deyirdi: "Ələmdən nəşəyə" kitabı tez bir vaxtda respublikamızın bütün kənd və şəhərlərində əldən ələ gəzdi. O zaman mən Gəncədə orta məktəbdə oxuyurdum. "Ələmdən nəşəyə"ni dönə-dönə oxuduqdan sonra mən öz yaradıcılıq yolumu müəyyənləşdirməyə başladım..."

"Ələmdən nəşəyə"nin gətirdiyi əhval-ruhiyyə yalnız şeirimizə deyil, nəsrimizə də təsir etdi. S. Rüstəm köhnə və yeni dünyaya münasibətində də, insani hiss-həyacanların tərənnümündə də, dosta-düşmənə baxışında da inqilabçı şair olmuşdur. O, necə hiss etmişsə elə də yazmışdır. Onun

poeziyasındakı səmimiliyin sirri bundadır. O, heç bir zaman şeir yazmaq üçün qafiyə və mətləb axtarmamışdır. Yandığı üçün qəlbinin hökmü ilə yazmışdır. İlhamındakı atəş heç vaxt sönməmişdir. S.Rüstəmin "Ələmdən nəşəyə"dən bugünədək çapdan çıxmış cild-cild şeir kitabları, bütün yaradıcılığı nəinki ədəbi ictimaiyyətimiz üçün, bütün xalqımız üçün mərdlik simvolu olmuşdur.

Yeni həyat başlayarkən üzümüzə gülməyə
Keçdim artıq gülə-gülə mən ələmdən nəşəyə...

Beləliklə, "Ələmdən nəşəyə" poeziyaya belə bir yaradıcılıq prinsipi gətirdi; onu əsrin aparıcı sənətinə çevirdi. Məhz buna görə də "Ələmdən nəşəyə" kitabı mərhələ təşkil edən poetik hadisə hesab edilməlidir. S.Rüstəm bu kitabda tapdığı, təsdiq etdiyi yaradıcılıq prinsiplərini müharibə dövrü lirikası ilə, xüsusilə bu dövrdən etibarən yaradıcılığında əsas bir istiqamət təşkil edən cənub lirikası ilə daha da inkişaf etdirdi.

Xalq şairi Süleyman Rüstəmi oxuculara yaxından tanıtmaq və sevdirmək üçün ədəbi-bədii gecənin keçirilməsi daha vacibdir. Tədbir iki hissədən ibarət olur. Tədbirə bir çox şair və yazıçıları, ədəbiyyat müəllimlərini və s. dəvət etmək olar. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirin birinci hissəsi şairin yaradıcılığı ilə bağlı çıxış və məruzələrlə başlayır. İkinci hissədə isə yazıçının qələmə aldığı roman və povestlərindən parçalar səsləndirilir. "Nə xoşbəxtdir sevərək yaşayanlar, sevilərək ölənlər" adlı ədəbi-bədii gecənin ssenarisini nümunə üçün veririk.

*Səhnədən Süleyman Rüstəmin portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir. Aparıcılar səhnəyə daxil olur.*

**I Aparici:** Ötən XX əsrdə Azərbaycan poeziyası çoxəsrlik ənənələri və dəyərləri əsasında yeni bir formada meydana

çıxdı və inkişaf etdi. Milli şeirimiz bütün əsr boyu bu keyfiyyəti nəinki qoruyub saxladı, hətta əsrin ayrı-ayrı mərhələlərində onu məzmunla, yeni poetik axtarışları ilə daha da qüvvətləndirdi və zənginləşdirdi. Əgər ötən əsrin əvvəlində poeziyada bu meyl böyük Sabirlə, Məhəmməd Hadi ilə bağlı idisə, əsrin 20-ci illərində yeni şairlər nəslinin meydana çıxması və poeziyada yeni yollar, yeni poetik dəyərlər axtarması ilə bilavasitə bağlı oldu. Yeni şairlər nəsli barədə düşünəndə isə biz onların sırasında ilk növbədə böyük xalq şairi S.Rüstəmin adını çəkməli oluruq. S.Rüstəm məhz bu ədəbi tarixi məqamda ədəbiyyata, poeziyaya gəlir və elə ilk addımlarından yaradıcılığı poeziyada böyük bir hadisəyə çevrilir. O, yalnız şair olaraq fəaliyyət göstərmir, öz sənətkar missiyasını şeir yazmaqla məhdudlaşdırmır, yeni ədəbi hərəkatı, ədəbi prosesi təşkil edir, onu istiqamətləndirir.

*(Oxucular səhnəyə daxil olur. "Süleyman kimiyəm" şeirini söyləyirlər.)*

**I oxucu:**

Kim deyir mən bu vətən mülkünə mehman kimiyəm?
Yox, bahar ömrümüzün can evinə can kimiyəm.
Toqquşur göydə buludlarla şeir dalğalarım,
Şairəm, sanki bu qəlbimlə birümman kimiyəm.

**II aparıcı:**

Birdir hər yerdə mənə həm aşağı, həm yuxarı,
Yox təkəbbürlə işim, sadə bir insan kimiyəm.
Gəzirəm əldə qələm şeirimizin bağlarını,
Qoymaram bassın alaq bağları, bağban kimiyəm
Keçmədim köhnəliyin baş qapısından içəri,
Yeni şeirin, yeni taxtında Süleyman kimiyəm.

**II Aparıcı:** S.Rüstəmin gül kimi zərif, ətirli, məşəl kimi odlu, alovlu sətirləri Azərbaycan poeziyasının bütün inkişaf mərhələlərində qələm dostları üçün ən gözəl bir nümunəyə

çevrilmişdir. O həmişə eyni coşqunluq, eyni ilhamla yazıb yaratmış, şeirlərimizin ağsaqqalı kimi ön cərgədə addımlamış, ədəbiyyatımızın məğrur bayrağını bir bani kimi zirvədən zirvəyə sancmışdır.

12 mart xalq şairi, dramaturq, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı Süleyman Rüstəmin doğum günüdür. O, ömrünün sonunadək özünün beynəlmiləlçi sənətkar və insan xarakterini layiqincə qoruyub saxlamış, o taylı, bu taylı Azərbaycanın tərənnümçüsü olaraq böyük yaradıcılıq yolu keçmişdir. Əsərlərində ikiyə parçalanmış vətənin göynərtisi, müasir ruhlu, rəvan dilli qəzəllər, siyasi lirika eyni dərəcədə gözəl işlənmiş poetik nümunələr yer alır. Ustadın Təbriz həsrətli şeirləri isə bu mövzuda yazılmış bütün əsərlərin içərisində həm sənətkarlıq, həm də ruhi-mənəvi ideya baxımından ən qüdrətlisidir. Eyni zamanda bu şeirlər xalqımızın ruhunda özünə əbədi yer tapmış bir həyat qayəsidir.

Qədrini ayrılıq çəkənlər bilir,
Hicrində göz yaşı tökənlər bilir.
Ömrünə qaranlıq çökənlər bilir,
Bağından gül-çiçək dərdim, Təbrizim,
Yenə təzələndi dərdim, Təbrizim!

*(oxucular Təbrizim şerini söyləyirlər)*

**I Oxucu:** Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim!

Qoymaram yadları girsin qoynuna,
İzin ver qolumu salım boynuna!
Sənin bayramına, sənin toyuna
Dili bir, qanı bir qardaşın gəlib,
Dərdinə aşina sirdaşın gəlib.

**II oxucu:**

Sən çıxdın qarşıma duzla, çörəklə,
Bağından dərdiyin güllə, çiçəklə
İkiyə bölünməz saf bir ürəklə,
Təbrizim, Təbrizim, aman Təbrizim,
Yox olsun başından duman, Təbrizim!
Qədrini ayrılıq çəkənlər bilər,
Hicranda göz yaşı tökənlər bilər,
Ömrünə qaranlıq çökənlər bilər,
Bağından gül-çiçək dərdim, Təbrizim,
Yenə təzələndi dərdim, Təbrizim!

**III oxucu:**
Nə qəşəngdir yol boyunca söyüdlər,
Söyüdlərin kölgəsində igidlər
Babalardan dinləyirlər öyüdlər,
Coşur damarlarda qanı, Təbrizim,
Yoxdur bu mərdlərin sanı, Təbrizim!

Ağlasan ağlaram, gülsən gülərəm,
Yaşasan yaşaram, ölsən ölərəm,
Varımı səninlə yarı bölərəm,
Gəl bir də üzündən öpüm, Təbrizim!
Başına gül-çiçək səpim, Təbrizim!
**IV oxucu:**
Nədir o, mənalı dərin baxışlar?
Nədir gözlərindən yağan yağışlar?
Nədir qəlbindəki payızlar, qışlar?
Yetimtək boynunu burma, Təbrizim!
Məlul-məlul baxıb durma, Təbrizim!

Sənin çiçəyinə, gülünə qurban!

Mənə qardaş deyən dilinə qurban!
Vətəninə qurban, elinə qurban!
Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim!

**I Aparıcı:** S.Rüstəmin şeirlərinin belə geniş yayılıb sevilməsinin sirri onun xalqa, Vətənə odlu, atəşli bir ürəklə bağlılığıdır. "Ana və poçtalyon" şeiri poeziyamızın ən görkəmli əsərləri sırasına daxil edilmiş ən gözəl və təsirli şeirlərdən biridir.

*Səhnədə ekranda "Ana və poçtalyon" şeiri əsasında hazırlanmış çarxlı slayd nümayiş olunur.*

Slaydı bu mənbədən köçürə bilərsiniz:
https://www.youtube.com/watch?v=vyKdMNdqycc

*Oxucu səhnəyə daxil olur. Sozləri Süleyman Rüstəmə, musiqisi Zeynəb Xanlarovaya aid olan "Axtararsınız" mahnısını ifa edir. Mahnının sözləri:*

Bir gün yadınıza düşərsəm, məni,
Bu doğma ellərdə axtararsınız.
Beş, altı nəğmənin müəllifini
Sevən könüllərdə axtararsınız.

İlk bahar çağında,
İsa bulağında,
Araz qırağında,
Sonalı göllərdə axtararsınız.

Gözəllər gözəlim, vətəndir, vətən,
Nə duman görəcək, amalım, nə çən.
Məni, karvan-karvan mənalı keçən,
Aylarda, illərdə axrararsınız.

Görən gözümü,
Ürək sözümü,
Mənim özümü
Nəğməli dillərdə axtararsınız.

**II Aparıcı:** Süleyman Rüstəm hələ ilk yaradıcılıq illərindən dramaturgiyaya da həvəs göstərmiş, bu janrda qələmini sınayaraq "Çimnaz xanım yuxudadır" adlı bir pərdəli komediya yazmışdır. Əsər həmin ildə məşhur aktyor Mirzaga Əliyevin köməyi ilə "Tənqid-təbliğ" teatrında tamaşaya qoymuşdur. 1931-ci ildə Süleyman Rüstəm yazıçı Hacıbaba Nəzərli ilə birlikdə "Yanğın" pyesini qələmə almışdır. Lakin S. Rüstəmi dramaturq olaraq şöhrətləndirən onun məşhur "Qaçaq Nəbi" mənzum dramıdır. Dramda şair-dramaturq xalq qəhrəmanı Qaçaq Nəbinin ədalətsizliklərə qarşı mübarizəsini təsvir etmiş, romantik qəhrəmanlıq üslubunda onun obrazını yaratmışdır.

*(Oxucular səhnəyə daxil olur. S. Rüstəmin "Qaçaq Nəbi" dramından bir parçanı səsləndirirlər.)*

**Nəbi:** Dostlar, budur mənim, arzum, əməlim:
Bir yerə toplansın qaragün elim.
Bəylərin zülmünə nəhayət verək,
Zəncirsiz, zindansız bir həyat sürək.
Özümüz çalışaq, özümüz əkək.
Bizə dərd olmasın bir parça çörək.
Doğma balaları bizik bu yerin,
Bu torpaq bizimdir, deyil bəylərin!

**Səfər:** Bizə yaraşmayır köləlik, Nəbi,

Qılınc vuran qolun heç bükülməsin.
Görüm düşməninin üzü gülməsin!

**Nəbi:** Hələlik yağılar güclüdür, bəli,
Gec-tez zərbəmizdən qırılır beli.

**Səfər:** Nəbi, danış, danış, dilinə qurban.

**Nəbi:** Dostlar, əminəm ki, gələr bir zaman,
Torpaqlar altına etsək də səfər
Hörmətlə yad elər bizi nəsillər.

**I aparıcı:** Süleyman Rüstəm lirik şairdir və bu lirikada siyasi pafos, publisist başlanğıc, vətəndaşlıq, ideya mövqeyinin sərrast ifadəsi çox qabarıqdır. Buna görə də Süleyman Rüstəm bu günümüzdən uzaq və ayrı deyildir. Vaxtilə özünün dediyi kimi:

Vətənsizlər vətəndən üz çevirib,
ondan ayrılsa,
Süleyman Rüstəmin qəlbi
Azərbaycandan ayrılmaz.

Bəli, bu gün Süleyman Rüstəm aramızda yoxdur. Amma Süleyman Rüstəm poeziyası əbədi və yaşarı poeziyadır. Ruhun şad olsun ustad-şair! Azərbaycanımızın varlığı qədər sən də var olacaqsan, unudulmayacaqsan...

S O N

# ƏDƏBİYYAT SİYAHISI:

## *ƏSƏRLƏRİ*

Seçilmiş əsərləri : 3 cilddə. I cild : şeirlər - Bakı : Şərq-Qərb, 2005. - 256 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri : 3 cilddə. II cild. - Bakı : Şərq-Qərb, 2005. - 327 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri : 3 cilddə. III cild. - Bakı : Şərq-Qərb, 2005. - 280 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri : poeziya. - Bakı : Çaşıoğlu, 2009. - 304 s. - (Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərləri [Elektron resurs]. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birrəngli. - (Nizami layihəsi).

## DÖVRİ MƏTBUATDA

Azərbaycana gəlsin // Savalan. - 2011. - 23- 26 dekabr. - № 70. - S. 1.

Görsəm : şeir // Savalan. - 2011. - 24-31 may. - № 34/35. - S. 6.

Qarabağ : şeir // Savalan. - 2010. - 26-30 noyabr. - N 56/57. - S. 1.

Nə qədər ki sağdır Rüstəm // Savalan. - 2011. - 13-15 dekabr. - № 67. - S. 1.

Piyaləm; Könlümə Təbriz düşdü : şeirlər // Ədəbiyyat qəzeti. - 2007. - 24 avqust. - S.2. .

Sağ ol, müəllimim Süleyman Sani! // Savalan. - 2008. - 7-10 noyabr. - S. 1.

Şair qardaşıma məktub : şeir // Savalan. - 2011. - 25-27 yanvar. - № 4. - S. 1.

Təbrizim : şeir // Yada düşdü. - 2012. - № 4. - S. 3.

Təbrizim : şeir // Savalan. - 2007. - 15-17 may. - S.1.

## *HAQQINDA*

### ***KİTABLAR***

Əhmədov T. Süleyman Rüstəm. - Bakı : İşıq, 1983. - 246 s.

Süleyman Rüstəm-100. - Bakı : Elm və Təhsil, 2012. - 156 s.

## *DÖVRİ MƏTBUATDA*


Azəroğlu. Süleyman Rüstəmə : şeir // Ədəbiyyat qəzeti. - 2007. - 24 avqust. - S.2.

Baharlı M. Xalq şairi ilə qeyri-adi söhbət : Süleyman Rüstəm haqqında xatirə // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2013. - № 3. - S. 61-64.

Baharlı M. Xalq şairi ilə söhbət : Süleyman Rüstəm - 100 // Azərbaycan müəllimi. - 2006. - 24 mart. - S.2.

Cəmşidov Ş. Böyük sənətkarlar haqqında xatirələrim // Ədəbiyyat qəzeti. - 2006. - 25 avqust. - S.2.

Əbilov İ. Süleyman Rüstəm məzahı // Azərbaycan. - 2012. - № 9. - S. 106-115.

Əliyeva İ. Süleyman qafil olma, vətən yandı: Süleyman Rüstəm-100 // Vəfa. - 2006. - №3-4. - S.6-8.

Əliyeva N. Cənubi Azərbaycan mövzusunda ədəbi əsərlərin interaktiv metodla tədrisi : Süleyman Rüstəmin "Təbrizim" şerinin tədrisi konstekstində // Azərbaycan müəllimi. - 2010. - 22 oktyabr. - N 41. - S. 5.

Gülgün M. Süleyman Rüstəmə : şeir // Ədəbiyyat qəzeti. - 2007. - 24 avqust. - S.2.

Hacızadə N. Gəncliyindən ustad sayılırdı : Süleyman Rüstəm - 105 // Azərbaycan. - 2011. - № 3. - S. 140-148.

Hətəmoğlu Ş. Vətənə, xalqa sədaqətin ifadəsi : Süleyman Rüstəm - 100 // Azərbaycan müəllimi. - 2006. - 15 iyun. -

S.5.
Hüseynova P. "Cənnət görmək istəyən Azərbaycana gəlsin" : Süleyman Rüstəm - 100 // Azərbaycan müəllimi. - 2006. - 12 may. - S.6.
Xalq şairi Süleyman Rüstəmin 100 illik yubileyi qeyd edildi // Azərbaycan 2006. - 22 aprel. - S.6. ; Ədəbiyyat qəzeti. - 2006. - 28 aprel. - S.1-2.
Xəlilzadə F. Könlünü vətənə verən şair : Süleyman Rüstəm - 100 // Azərbaycan. - 2006. - 12 mart. - S.6.
İlkin Q. Güneyli günlərimiz : Süleyman Rüstəm - 100 // Ədəbiyyat qəzeti. - 2006. - 14 aprel. - S.1.
İsmayıloğlu A. "Atam kimi sadə olmaq istəyirəm" : Xalq şairi Süleyman Rüstəmin oğlu Azad Rüstəmov ilə müsahibə // Ədəbiyyat qəzeti. - 2006. - 21 aprel. - S.4.
İsmayıloğlu A. Dünənimizin, bu günümüzün, sabahımızın şairi : Süleyman Rüstəm haqqında // Ədəbiyyat qəzeti. - 2009. - 8 may. - S. 6.
Məmmədov Ş. Vətəni həyatı, varlığı bilən sənətkar : Süleyman Rüstəm - 100 // Azərbaycan müəllimi. - 2006. - 12 may. - S.6.
Mircəfərin ölüm qoxulu zarafatı // Hüquqi dövlət və qanun . - 2013. - N 2. - S. 50-51.
Nadiroğlu E. Dinlə, gör nə deyir?! : Süleyman Rüstəm - 100 // Mədəni - Maarif. - 2006. - № 7. - S.54-55.
Nə qədər çox qonarar alsa da, atamın əlində pul qalmazdı ; /Xalq şairi Süleyman Rüstəmin oğlu filologiya elmləri üzrə fəlsəfə doktoru Azad Rüstəmzadə ilə müsahibə / yazdı : Ellada Umudlu] // Azərbaycan Müəllimi. - 2012. - 19 oktyabr. - № 41. - S. 8.
Nəcəfzadə Q. Əyləşdiyim stul : "Azərbaycan" jurnalı poeziya şöbəsinin redaktoru olmuş və dünyasını dəyişmiş unudulmaz sənətkarlarımızın xatirəsinə // Azərbaycan. - 2010. - N 3. - S. 171-176.
Salmanov Ş. Böyük zamanın şairi : Xalq şairi Süleyman Rüstəm haqqında // Ədəbiyyat qəzeti. - 2006. - 21 aprel. -

S.1-3.
Sərvi S.  Bir gün məni salıb yada... : Süleyman Rüstəm haqqında  // Mədəni həyat. - 2012. - № 7. - S. 24-28.
Sərvi S."Bir gün məni salıb yada..." : Azərbaycanın Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rüstəm haqqında  // El. - 2011. - № 4. - S. 30-42.
Ülvi A. Yeni şerin yeni taxtında əfsanələşən Süleyman : Süleyman Rüstəm-100.  // xalq qəzeti. - 2006. - 21 aprel. - S.7.
Vətənə, xalqa sədaqətin ifadəsi : Süleyman Rüstəm - 100 // Azərbaycan müəllimi. - 2006. - 15 iyun. - S.5.
Yusifli V. Poeyziyamızın Süleymanı : Süleyman Rüstəm-100 // Azərbaycan. - 2006. - № 3. - S.99-109.

## *ŞAİRİN SÖZLƏRİNƏ BƏSTƏLƏNMİŞ MAHNILAR*

Axtararsınız / Bəst. Emin Sabitoğlu // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.12.

Azərbaycana gəlsin / Tofiq Quliyev // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.56.

Bağışla məni / T. Bakıxanov // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S. 62.

Bakı / bəst. Ə.Məmmədov // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.68.

Beləyəm / bəst. Ə. Məmmədov // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.80.

Bəs nə deyim? / bəst. Z. Xanlarova // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.85.

Bir ulduzam / bəst. R. Mustafayev // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.96.

Gözəlim / bəst. Ş. Əbdülkərimov // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.210.

Gülüm, sənsiz / R. Hacıyev // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.228.

Həlimə / bəst. H. Nəcəfova // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.242.

İlk baharım / bəst. Ş.Axundova // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.262.

İnsan / bəst. Ə. Məmmədov // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.271.

Qurban adına / S.Rüstəmov // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.321.

Lay-lay / bəst. H. Nəcəfova // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.325.

Məhəbbət / bəst. Ə. Məmmədov // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.336.

Oğlum // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.395.

Sevən könül / bəst. T. Bakıxanov // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.425.

Sevindir məni / S. Quliyeva // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.435.

Sevməyir, qoy sevməsin / T. Bakıxanov // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.438.

Vətən mahnısı / bəst. Niyazi // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.534.

Yanan ürəyim / bəst. Ə. Məmmədov // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.545.

Yandım, elə yandım / bəst. R. Mirişli // Minbir mahnı : Rafiqin mahnı kitabı. – B. : Min bir mahnı, 2007. – S.546.